*Sumqayıt şəhərinin 70 illik yubileyi qarşısında*

# TARİXİ YADDAŞLARA KÖÇÜRƏN MUZEY

**Dövrünün uzaqgörən ziyalısı Ömər Xəyyam yazırdı: "Bu günü daha yaxşı görmək üçün keçmişi bilməliyik". Şübhəsiz ki, keçmişi öyrənmək üçün ən mükəmməl, ən münasib hal muzeylərə üz tutmaqdır. Dünyada mövcud olmuş ilk muzeyin tarixi eradan əvvəl XVII-XVI əsrlərdən qaynaqlanır ki, bu, Misirin "Arseneum" muzeyidir.**

**Sumqayıtın Tarixi Muzeyinin direktoru, Əməkdar mədəniyyət işçisi O.İslamova ilə söhbət edərkən dedi:**

—Azərbaycan Respublikası Nazirlər Sovetinin 13 mart 1967-ci il tarixli, 13 saylı sərəncamı ilə yaradılmış Sumqayıtın Tarixi Muzeyi gənclik şəhərinin həyatına, sənayenin, təhsilin, səhiyyənin, mədəniyyətin, dostluq əlaqələrinin inkişafına az da olsa, işıq sala bilmişdir.

Muzeyin əsas və köməkçi fondlarında qorunan eksponatların sayı 1967-ci ildə 1113 göstərilirdisə, 1969-cu ildə bu rəqəm 1828-ə çatdırılmışdır. Öz işinə məsuliyyətlə yanaşan muzey kollektivi 1972-ci ildə ilk qiymətini almışdı. SSRİ Mədəniyyət Nazirliyi tərəfindən elmi-kütləvi, maarifləndirici işlərdə fəal iştirakına görə diplom, medal və pul mükafatı...

1974-cü ildə Sumqayıtın 25 illik yubileyi ilə əlaqədar muzeyin elmi heyətinin tərtib etdiyi sərgi bayram əhval-ruhiyyəsi yaşayan şəhərdə böyük rezonans doğurmuşdu.

1980-ci illər də muzeyin həyatında yaddaqalan illər kimi tarixə köçürüldü. "Sumqayıt-sənaye mərkəzi", "Məktəblilərin əl işləri", "Bizim müasirlərimiz — əmək qəhrəmanları", "Qardaşlaşmış şəhərlər" və s. bir-birini əvəz edən müxtəlif sərgilərin tərtibatı, şəhər əhəmiyyətli muzeydaxili, muzeydənkənar tədbirlərin təşkili muzey kollektivinin gərgin əməyindən xəbər verirdi.

Yeni binaya köçən muzey 1990-cı illərdə ikinci həyatını yaşamışdır. Sumqayıtı kiçik Azərbaycan adlandırırlar. Bu, səbəbsiz deyil. Çünki respublikada cərəyan edən ictimai-siyasi hadisələr Sumqayıtdan yan keçmir, onun tarixini yaşadan muzeydə az da olsa, öz həllini tapırdı.

Sumqayıtın Tarixi Muzeyi şəhərin tarixi ilə yanaşı, bütövlükdə Azərbaycanı — onun keçmişini, mədəniyyətini əks etdirən bir tarix yaşadır. Məlum səbəblərdən Qərbi Azərbaycanın Qafan rayonu Nəcəfi kənd Tarix-Diyarşünaslıq Muzeyindən "qaçqın" düşən tarixi-məişət əşyaları illər uzunu muzeyin sərgi zalında "Bir elin harayı" adı altında nümayiş olunmuşdur. Zəngəzur, Sisyan, Qubadlı, Cəbrayıl, Zəngilan rayonlarından toplanmış bu eksponatlar kənd təsərrüfatı alətləri, ev əşyaları olmaqla geniş tamaşaçı kütləsinin marağına səbəb olmuşdu.

Erməni vəhşiliklərini tablolara köçürən sumqayıtlı rəssamların - Maqsud Cəfərovun, Nizami Dadaşovun fərdi sərgiləri 1992-ci ildə "Azadlığa doğru" sərlövhəli sərgidə ilk olaraq Sumqayıtın Tarixi Muzeyində ictimaiyyətə təqdim olunmuşdur.

İctimaiyyətin köməyi sayəsində ərsəyə gəlmiş, muzey bu gün də peşəkar elm, mədəniyyət ocağı kimi respublikanın muzey müəssisələri arasında özünəməxsus yer tutur. Şəhərdə baş verən ictimai-siyasi hadisələr, mədəni-maarif sahəsində yaranan dönüş, əldə olunan uğurlar muzeyin tərtib və təsdiq olunmuş ekspozisiyalarında öz əksini tapır. Muzey fondunun materialları həmçinin, ictimai-siyasi xarakterli ümumşəhər tədbirlərində də : nümayiş olunur. Bu mənada Sumqayıtın 55, 60, 65 illik yubileyləri ilə əlaqədar keçirilən tədbirləri xatırlatmaq yerinə düşər. Həm muzeydaxili, həm də muzeydənkənar keçirilən yubiley tədbirlərində özünəməxsus mövqedən çıxış edən, Sumqayıtın tarixini qarış-qarış yaşadan, öyrənən və öyrədən Sumqayıtın Tarixi Muzeyi daxili potensialının hansı çərçivəyə sığdığını artıq sübut edə bilib. Şəhərin 60 illik yubileyinə hədiyyə — "Mədəniyyətin tərəqqi ünvanı - Sumqayıt" kitabı muzey fondunun materialları əsasında elmi heyət tərəfindən hazırlanaraq ictimaiyyətə təqdim olunub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycanda muzey işinin yaxşılaşdırılması haqqında" 6 mart 2007-ci il, "Azərbaycan regionlarında fəaliyyət göstərən muzeylərin müasir standartlara uyğun təmirinə, yeni avadanlıq və zəruri eksponatlarla təchizatına dair xüsusi tədbirlər planının təsdiq edilməsi haqqında" 22 may 2009-cu il tarixli sərəncamlarına müvafiq olaraq əsaslı təmir olunmaqla, yenidən qurulan muzey 2010-cu ildən yeni simada ziyarətçilərini qəbul edir.

Muzeyin kiçik ekspozisiya zalında "Vətən uğrunda ölüm həyatın davamıdır" fikri qəhrəman sumqayıtlı oğul və qızlarımızın keçdiyi şərəfli yola işıq salır. Qeyd edim ki, Sumqayıtın Tarixi Muzeyində respublikada ilk dəfə olaraq, daimi fəaliyyət göstərən "Şəhidlər qalereyası" yaradılmışdır. Buradakı vitrinlərdə yerləşdirilmiş sumqayıtlı şəhidlərin şəxsi arxivlərindən seçmələr, onlara məxsus geyimlərin, əşyaların nümayişi, mövzu ilə səsləşən "Ulduz axını" abidəsi, sumqayıtlı rəssamların rəngkarlıq nümunələri azəri yurdunun bir parçası Sumqayıtın mətinliyini sübut edir.

Ulu öndər Heydər Əliyevin Sumqayıt səfərlərinə həsr olunmuş ekspozisiya zal ilə tanışlıq, burada nümayiş olunan sənədlər, fotoşəkillər, fotoalbomlar, kitablar, qəzet və jurnallar toplusu isə səbəbkarın təbirincə desək: "Sumqayıt bütün Azərbaycanın gözəl təcəssümüdür" fikrini əsaslandırır. Ekspozisiya zalının tən ortasında sanki Xəzərin qumsallığında cücərib qol-budaq atmış, Sumqayıtın yaranmasını, inkişafını göstərən, üzərinə zərvərəq çəkilmiş rəmzi-ağac zalın ümumi görünüşünə bitkinlik, tamlıq gətirir.

Əsas mövzu ekspozisiyası ilə barəbər, "İlham Əliyev və yeniləşən Sumqayıt", "Muzeyimizin fondlarından" kimi daimi sərgilərin də nümayişi həyata keçirilir.

Şəhər sakinləri ilə isti münasibət quran muzey üzərinə düşən ekskursiya normalarını yerinə yetirməklə yanaşı, səyyar sərgilərin tərtibatı, yerlərdə mühazirələrin dinləmisinin təşkili, dövri mətbuat, yerli televiziya vasitəsilə fəaliyyətinin işıqlandırılmasını da təmin edə bilir.

Yaxın zaman kəsiyində yaşanmış Azərbaycan kimyasının 70 illik yubileyinin məhz muzeydə qeyd olunmasını, mövzu ilə əlaqədar fond materialları əsasında, yüksək səviyyədə tərtib olunmuş sərginin nümayişini, eləcə də hər il, aprel ayında Bakı Ekspo Mərkəzində baş tutan Azərbaycan Beynəlxalq Turizm və Səyahətlər sərgisində muzeyin də iştirakını xatırlatmaq kifayətdir. Əlamətdar günlərə, tarixlərə həssaslıqla yanaşan, tarixi günlərin tədbirlər, sərgilər fonunda tarixə köçməsini təmin edən Sumqayıtın Tarixi Muzeyi öz bayramını da yüksək əhval-ruhiyyədə qarşılamağı unutmur. Bu mənada dünya muzeylərinin qatıldığı " Muzeylər baharı" aksiyasını " Açıq Qapı" günü kimi qarşılamağı ənənəyə çevirib. Muzeyin sadiq qaldığı ənənələr də burada yerli yazarların qələm sahibi olduqları kitabların təqdimat mərasimlərinin baş tutmasıdır.

İstər Sovet rejiminin hökm sürdüyü illərdə, istərsə də müstəqillik dövründə Azərbaycanın ikinci nəfəsi, dostluğun ünvanı kimi tanınan Sumqayıt qonşu Gürcüstandan, Türkiyədən, Ukraynadan, Belarusdan, Qazaxıstandan, uzaq Almaniyadan, Rumıniyadan, Çindən, İtaliyadan gələn qonaqlarını tarixini yaşadan muzeydə qarşılayır. Yaxın zaman kəsiyində isə muzeyimiz Türkiyənin Samsun şəhəri ilə dostluğumuza birbaşa ev sahibliyi edib. Qonaqpərvərliyi ilə tarixə köçən Sumqayıtın Tarixi Muzeyinin qonaqları arasında Heydər Əliyev varlığını xüsusi vurğulamaq, yəqin ki, bu peşəkar mədəniyyət müəssisəsinin öz işinə hansı prizmadan yanaşmasını sübut etmiş olur.

Elmi-kütləvi, maarifləndirici işlərdə fəal iştirakına görə dəfələrlə mükafatlandırılan Sumqayıtın Tarixi Muzeyi, mübaliğəsiz demək olar ki, respublikanın muzey müəssisələri arasında bu gün peşəkar elm, mədəniyyət ocağı kimi tanınır. Hələ ilk qiymətini SSRİ Mədəniyyət Nazirliyi tərəfindən alan muzeyin təltifləri sayılacaq dərəcədə çox olduğu kimi, bu gün ziyarətçiləri də yetərincədir. Bir milyondan artıq insana mədəni xidmət göstərmiş Sumqayıtın Tarixi Muzeyi qarşıdan gələn 70 illik yubiley tarixini düşündürücü, maarifləndirici tədbirləri, sərgiləri ilə qarşılamağa hazırlaşır.









**Zabit CAVADOV,**
**"Respublika".**